# Zəfər səngərindən reportaj

Lələtəpə, 12 noyabr 2016



# Lələtəpədən Ali Baş Komandana əsgər raportu: “Azərbaycan bayrağını Şuşada da dalğalandırmağa hazırıq”

> **Bu yol zəfərə gedən yoldur...**
> **Lələtəpəyə gedən yoldur...**
> **Daşlı-kəsəklidir, kəskin enişli, sərt yoxuşludur...**
> **Amma ətrafı əsrarəngizdir, yaz çiçəkləri, əsasən də lalələr göz oxşayır...**
> **Sakitliyi arabir atəş səsləri pozur...**
> **Ayaq basdığımız torpaq başımızı uca edən qürur rəmzidir...**
> **Bu torpaqda şəhid qanı tökülüb və bir daha enməyəcək Azərbaycan bayrağı ucalıb!..**



Lələtəpədə qəhrəmanlıq və əbədiyyət xatirə abidəsi

## Hərb tariximizin qəhrəmanlıq salnaməsi

Deyirlər torpaq su ilə qarışanda palçıq olur, qanla qarışanda Vətən. Uğrunda şəhidlər verilərək canla əvəzi ödənilir, qanla yoğrulur... Qarşısında dayandığımız Lələtəpə yüksəkliyi də şəhid qanı ilə yoğrulan Vətən torpağıdır və artıq bizim üçün müqəddəsləşən zirvədir.

Hərb tariximizin qəhrəmanlıq salnaməsinə öz şərəfli imzalarını ataraq ölümsüzlüyə qovuşan igid oğullarımız bu torpağı azad etdilər və bizə miras qoydular. Biz də bu Vətən torpağını onlar kimi sevməli, onlar kimi uğrunda savaşmalıyıq.

İndi bu yüksəkliyə aprel zəfərində şanlı döyüş yolu keçərək böyük hərbi şücaət göstərmiş Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsi nəzarət edir. Biz də aprel zəfərinin 1-ci ildönümünün qeyd olunduğu bir vaxtda cəbhə xəttinin bu istiqamətində hərbin ən çətin missiyasını yerinə yetirən Azərbaycan əsgəri ilə görüşmək üçün hərbi hissəyə üz tutduq. Bələdçimiz hərbi hissənin psixoloqu, mayor Taleh Balabəyov idi.

## Düşmənin 22 il ərzində “möhkəmləndirdiyi” mövqelər bir həmlədə dəf edildi

Torpaq yolla yüksəkliyə qalxırıq. Bu gün asanlıqla qalxdığımız bu yoxuşu bir il öncə Azərbaycanın igid oğulları yağışlı-küləkli qaranlıq gecədə döyüşə-döyüşə qalxıblar. Bu o yüksəklik idi ki, işğaldan azad edilənə qədər Ermənistan ordusu Horadiz şəhəri başda olmaqla, Füzuli rayonunun bütün yaşayış məntəqələrini, o cümlədən Azərbaycan Ordusunun mövqelərini açıq-aydın müşahidə edir, istənilən yerə atəş zərbələri endirirdi. Ancaq 2016-cı ilin aprelində igid Azərbaycan oğullarının şücaəti qarşısında aciz qalaraq geri qaçmağa məcbur oldular və artıq belə bir təhlükə yoxdur. Lələtəpədə dalğalanan üçrəngli bayrağımız və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində aparılan tikinti-quruculuq işləri düşmənə göz dağı verir.

Artıq bütün Ermənistan yaxşı bilir ki, bu gün Azərbaycanın ən müasir silah-sursata və hərbi texnikaya sahib, yüksək döyüş ruhuna malik ordusu var.

Ardı 3-cü səh.



Lələtəpə, 12 noyabr 2016

# Lələtəpədən Ali Baş Komandana əsgər raportu:

# “Azərbaycan bayrağını Şuşada da dalğalandırmağa hazırıq”

*Əvvəli 1-ci səh.*

Bu ordu aprel döyüşləri zamanı Ali Baş Komandan İlham Əliyevin əmri ilə arsenalında olan yeni silahların cüzi bir qismindən yararlandı. Dördgünlük müharibənin yekunu olaraq düşmənin 22 il ərzində “möhkəmləndiyi” mövqelərdən, xüsusən strateji yüksəkliklərdən geri otuzdurulması, iki min hektar işğal olunmuş ərazinin azad edilməsi göstərdi ki, Azərbaycan Ordusu həqiqətən əzici gücə və üstünlüyə malikdir. Aprel hadisələri həm də Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının, qələbə əzminin yüksək olduğunu nümayiş etdirdi.

Ordumuzun bu zəfərinə ən layiqli qiyməti isə Ali Baş Komandan İlham Əliyev verdi: “Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaq... Aprel döyüşləri, demək olar ki, Ermənistanın ideoloji əsaslarını dağıtdı”.






## Effektiv müdafiə sistemi, yüksək döyüş əhvali-ruhiyyəsi

Lələtəpədəyik. Səngərlərimizlə düşmən postu arasında məsafə çox azdır. Ancaq buna baxmayaraq, səngərlər effektiv döyüş sistemi, müşahidə cihazları, yüksəksəviyyəli müdafiə qurğuları ilə təmin edilib. Bu strateji yüksəklikdə belə bir müdafiə sisteminin yaradılması düşmənin hərəkət imkanlarını xeyli məhdudlaşdırır, istənilən təxribatlara adekvat cavab vermək imkanı yaradır. Şəxsi heyətin sosial-yaşayış şəraiti də müasir tələblərə cavab verir.

Bizi taqım komandirinin köməkçisi, gizir Zahid Həsənov qarşılayır. Salamlaşıb taqımın “blindaj”ına daxil oluruq. Ancaq bura sanki blindaj yox, arxa cəbhədəki hərbi hissədə mövcud olan əsgər kazarmasıdır. Yəni əvvəlki blindajdan əsər-əlamət yoxdur. Burada əsgərlər üçün yaradılmış şərait son dövrlərdə daha da yaxşılaşıb. Hətta içəridə “kombi” istilik sistemi belə mövcuddur. Postdan qayıdan əsgərlər rahat çarpayılarda uzanaraq televizora baxır, dincəlir, bir sözlə, istirahətlərini səmərəli keçirirlər.

Təşviqat guşəsində Azərbaycan Konstitusiyası, dövlət rəmzlərimiz barədə məlumatlar, Ali Baş Komandan İlham Əliyevin ordu ilə bağlı söylədiyi fikirlər yer alıb. Həmçinin divardan Milli Qəhrəman Mübariz İbrahimov və aprel döyüşlərində şəhid olan hərbi qulluqçuların şəkilləri asılıb. Burada anbar, mətbəx, sanitariya qovşağı da mövcuddur.

## “Hərbi hissə komandirinə ərizə yazıb Naxçıvandan Lələtəpəyə gəldim”

Hərbçilərimiz bizi çay süfrəsinə dəvət edirlər. Lələtəpədə əsgər çayı içməyin ayrı ləzzəti var!

11 ildir Azərbaycan Ordusunda xidmət edən gizir Zahid Həsənov burada yeni xidmətə başlayıb. Bura öz xahişi ilə gəlib: “Naxçıvanda “N” saylı hərbi hissədə qulluq edirdim. Ordumuzun aprel zəfərindən sonra daha da ruhlandım və hərbi hissə komandirinə ərizə ilə müraciət edərək xidmətimi Lələtəpə istiqamətindəki ön xətdə davam etdirmək istəyində olduğumu bildirdim. Çox sağ olsunlar ki, arzumu ürəyimdə qoymadılar. İndi şərəfli xidmətdəyəm. Qürur hissi keçirirəm. Bir şeyə heyifsilənirəm ki, aprel döyüşlərində burada olmamışam”.






Taqım komandiri Zakir Gözəlov vurğuladı ki, hərbi hissə komandanlığı şəxsi heyətin döyüş və peşəkarlıq səviyyəsinin artırılması istiqamətində bütün zəruri tədbirləri həyata keçirir. Çünki ordunun gücü xidmət edən şəxsi heyətin ruh yüksəkliyindən də asılıdır. Aprel zəfəri isə yüksək döyüş hazırlığına malik olan əsgərlərimizi elə ruhlandırıb ki, yalnız hücum, qələbə, zəfər barədə düşünürlər: “Hər an Ali Baş Komandan İlham Əliyevin əmrinə hazırıq. Onsuz da qarşımızda dayanan düşmən əsgəri qorxu içindədir. Bir həmləmizə silahı atıb yenə qaçacaqlar! Aprel döyüşlərindən sonra çox qorxu keçirirlər”.

## “Bayrağımızın dalğalandığını görəndə gözlərim yaşardı”

Bir qədər söhbətləşdikdən sonra bayıra çıxıb postda dayanan əsgərlərimizə tərəf yollandıq. Səngərdəki əsgərlərimiz də yüksək döyüş əhvali-ruhiyyəsində, şən ovqatda idilər.

Həmsöhbətimiz əsgər Tural İslamov 16 aydır burada xidmətdədir. Aprel döyüşlərinin şahididir və bu, ona bütün həyatı boyu fəxarət hissi yaşadacaq: “Həyatım boyu o günləri unutmayacağam. Hərbi hissədə xidmətdə idik. Xəbər gəldi ki, Ermənistan hərbçiləri hücuma keçib, düşmənin qarşısı qətiyyətlə alındıqdan sonra bizim döyüşçülər əks-həmlə ilə Lələtəpəyə tərəf irəlilədilər. Biz də onlara köməyə göndərildik. Bütün səngərlər düşmən cəsədləri ilə dolu idi. Silahlarını, texnikalarını qoyub qaçmışdılar. Lələtəpədə bayrağımızı görəndə gözlərim yaşardı. Bu, elə bir hisdir ki, danışmaqla anlatmaq olmur”.

Postda dayanan digər əsgər Ayət Tağıyev isə 7 aydır hərbi xidmətdədir. Ön cəbhədə xidmət keçməsini özünə şərəf sayır: “Özünüz də görürsünüz ki, ən ön xətdəyik. Lələtəpə istiqamətində xidmət keçmək qürurvericidir. Çünki bu yüksəkliyin düşməndən geri alınmasında hərbi hissəmizin qəhrəman oğulları canlarından keçiblər. Biz də hər an onlar kimi qəhrəmanlıq göstərməyə qadirik! Biz düşməndən çox güclüyük! Qəhrəman olmağa da, şəhidlik zirvəsinə yüksəlməyə də hazırıq”.

## “Ermənistana göz dağı verdik”

Lələtəpədə şərəfli xidmət edən əsgər İlkin Babayev də aprel döyüşlərinin şahididir: “Biz bura gələndə şiddətli döyüş gedirdi. Ermənistan ordusu itirdiyi mövqeləri geri almağa can atırdı. Ancaq biz bir addım geri çəkilmədik. Meyitləri qazdıqları səngərlərdə qalmışdı. Həmin vaxtdan qorxu hissim sanki “öldü”.

İndi Lələtəpəyə cəsur Azərbaycan əsgərləri nəzarət edirlər. Ali Baş Komandanımız İlham Əliyev nə zaman hücum əmri verərsə, önümüzdə qorxa-qorxa dayanan erməni əsgərini hara qədər lazımdırsa, qova bilərik! Çünki aprel döyüşləri şəxsi heyətin özünə inamını, döyüş ruhunu artırıb! Dünya Azərbaycanlılarının Həmrəylik günü, Yeni ili Lələtəpədə qeyd edib Ermənistana göz dağı verdik. Bundan böyük sevinc hissi ola bilməz”.

Bəli, Vətən üçün düşünmədən ölümün ağuşuna atılan bu gənclər şəhidlik zirvəsinə yüksəlməyi ən ali məqam hesab edirlər. Onların gözlərindəki qorxmazlıq, düşmənə nifrət hissi aydın hiss olunur.

## Lələtəpəyə üçrəngli bayrağımızı sancan kapitan

Səngərdə hərəkət etdiyimiz zaman bir neçə istiqamətdə atəş səsləri eşidildi. Cavab atəşindən sonra sanki qurbağa gölünə daş atdılar. Yenidən taqımın blindajına qayıtdıq.

Həmsöhbətimiz zabit Nahid Rzayev Azərbaycan Ordusunun aprel zəfərinin iştirakçısı və Lələtəpəyə üçrəngli bayrağımızı sancan 4 hərbçidən biridir. Kapitan N.Rzayev aprel döyüşləri zamanı məzuniyyətdə olub. Düşmən təxribatından xəbər tutan Rzayev məzuniyyətinin 5-ci günü geri qayıdaraq silaha sarılıb: “Hərbçi yoldaşlarım xəbər verdilər ki, düşmən hücuma keçib. Dərhal hərbi hissəyə qayıtdım. Komandanlığın təlimatına uyğun olaraq ön xəttə gəldik. Qruplara bölünüb əks-hücum əməliyyatına başladıq. Lələtəpənin ətəyindən döyüşə-döyüşə yüksəkliyə doğru irəlilədik. Düşmənin minaatanlarının mərmiləri yağış kimi yağırdı. Buna baxmayaraq, irəliləyirdik. Dəhşətli mənzərə vardı. Güllə və mərmi qəlpəsindən yaralanan zabit və əsgərlərimiz döyüşməkdə davam edirdilər. Gecənin qaranlığında Ermənistan hərbçiləri hara gəldi atırdılar. Ancaq bizim hərbçilərimiz dəqiq atəş zərbələri endirirdilər. Ona görə də qarşı tərəf böyük itkilərə məruz qaldı və qaçmağa başladı. Döyüşlərin ilk günü hərbi hissəmizin 4 hərbçisi - mayor Elnur Əliyev, gizir Nicat İsgəndərov, əsgərlər Ruhin Qəhrəmanov və Orxan Həmidov böyük hünər və rəşadət göstərərək şəhid oldular. Lələtəpəni azad etdik. 3 kəşfiyyatçı və mən bu yüksəkliyə çıxdıq. Bayrağımızı taxta parçasına bağlayıb Lələtəpəyə sancdıq. Bu, hərbçi həyatımın ən unudulmaz anı idi! Əminəm ki, tezliklə Ali Baş Komandanımız İlham Əliyevin döyüş əmri ilə bayrağımızı Şuşada ən yüksək zirvəyə sancarıq”.

Zabit N.Rzayev deyir ki, dördgünlük müharibə nəticəsində xalqımızın öz ordusuna inamı, vətənpərvərlik hissi daha da güclənib. Aprel zəfəri ordu ilə xalq birliyinin təntənəsinə çevrilib. Döyüşlərdən sonra evə qayıdanda bir daha bunun şahidi olub. Qonum-qonşu, hər kəs onu qəhrəman kimi qarşılayıb. Bir hərbçi üçün bundan şərəfli nə ola bilər ki...

## Yüksəklikdə əbədiləşən Lələtəpənin kiçik rəmzi

Nahid Rzayev aprel döyüşlərində şücaətlə düşmən üzərinə hücum edib şəhid düşən hərbçi yoldaşının xatirəsini elə Lələtəpədə əbədiləşdirib. Burada gül-çiçək içərisində olan kiçik bir təpəciyə bayrağımızı sancıb. Onun ətəyində “N” saylı hərbi hissənin şəhid hərbçilərinin adları yazılmış lövhə yerləşdirib.

“Onlar hər an qəlbimizdədirlər. Müqəddəs ruhları ən yüksək zirvələrdədir. Onların igidliyi, qəhrəmanlığı əfsanəyə döndü. Adları nəsildən-nəslə ötürüləcək, şeirə, dastana çevriləcəklər. Ali Baş Komandanımız da deyib ki, aprel döyüşləri dərsliklərə salınmalıdır”, - deyə zabit N.Rzayev bildirdi. Hər gün posta çıxan əsgər bu lövhəyə nəzər yetirərək etdiyi hərbi xidmətin Vətən, millət üçün nə qədər dəyərli, şərəfli olduğunu bir daha xatırlayır. Bu, hər bir əsgərdə böyük ruh yüksəkliyi yaradır, döyüş əzmini yüksəldir.

Lələtəpə yüksəkliyində belə bir mənzərənin şahidi olmaq həqiqətən qürurvericidir. Öz gözlərimizlə şahid olduq ki, mübariz ordunun qələbə səngərində dayanan məğrur Azərbaycan əsgəri düşmənin istənilən təxribatına cavab verməyə qadirdir.

Zaman-zaman bəd niyyətlərini, hiylələrini işə salaraq təxribatlara əl atan işğalçı Ermənistan aprel döyüşlərində şok yaşadı. Çünki bu dəfə qarşısında daha güclü və məğlubedilməz Azərbaycan əsgəri, Azərbaycan Ordusu gördü. Özü də bir mərkəzdən idarə olunan döyüşkən ordu.

Ali Baş Komandan İlham Əliyevin söylədiyi kimi, bu gün Azərbaycan Ordusu yenilməz ordudur və istənilən vəzifəni icra etməyə qadirdir. İşğal edilmiş torpaqlarda, Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, ordumuz onu məhv edə bilməsin! Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir və Azərbaycan əsgəri Ali Baş Komandanına qələbə raportu verməyə hazırdır.

Buradan xoş və qürurverici təəssüratlarla ayrılırıq. Yolumuz növbəti hərbi hissəyə doğrudur...

*(Ardı var)*








***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***